# ANA VƏTƏNİMDƏ UNUDULMAZ BİR GÜN

*(Əvvəli ötən saylarımızda)*

Mən isə öz növbəmdə bir daha Eyvaz müəllimə dərin minnətdarlığımı bildirərək qarşısında onun vermiş olduğu stimuldan cəsarətlənib bu sözləri söylədim: “Eyvaz müəllim, Sizin təşəbbüsünüzlə elə bir tədbir həyata keçdi ki...Bir söz var ki, elə bil mənə dünyaları verdilər. Siz isə elə bir iş gördünüz ki, dünyaları vermək bu işin yanında dəryada bir zərrə də deyil”. Eyvaz müəllim təvazökarcasına etdiklərinin üstündən keçərək bunların onun vətən, xalq, millət, yaradıcı insanlar qarşısında borcu olduğunu bildirdi. Sonda tədbirin təşkilatçıları ilə bir daha görüşərək hər birinə ümumən sonsuz təşəkkürlərimi bildirdim və yaşayış ünvanıma, Xırdalan şəhərinə qayıtmaq üçün yola başladım. Ayağım sanki sözümə baxmırdı. Xocavəndə doğru gedəndə yeyin yeriyənayağım indi könülsüzcəsinə sürünən palazı xatırladırdı. Orada olan hər kəs bir daha əl edərəkbizimlə xudahafizləşdi. Eyvaz müəllim isə xüsusilə hər zamankı kimi hərbi salamıyla fərqləndi, mən də ona cavab olaraq əlimi sinəmə qoyub baş əydim, təzim etdim. Beləliklə, axırıncı yox, axarıncı olan unudulmaz dəqiqələrim müvəqqəti olaraq yekunlaşdı.

Mənim üçün sonsuzlaşan, əbədilik qazanan 7 dekabr 2022-ci il tarixdə Xocavənd rayon Mədəniyyət Evində keçirilən “Möhtəşəm Zəfərin nişanəsi” kitabımın təqdimatına görə və hər şeyə görə Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı çox hörmətli Eyvaz müəllim Hüseynova, Mədəniyyət Nazirliyinin Kürdəmir Regional Mədəniyyət İdarəsinin rəisi Faiq müəllim Xudanlıya, icra başçısının müavini, ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Əfsanə xanım Quliyevaya, Şəhid ailələrinin tədbirdə iştirak edən nümayəndələrinə, tədbirin aparıcısı Ramil Əhmədə, hüquq-mühafizə orqanları rəhbərlərinə, ictimaiyyət nümayəndələrinə, əziyyət çəkərək tədbirdə nitq söyləyən və ümumən iştirak edən bütün Xocavənd sakinlərinə, ziyalılarına dərindən dərin minnətdarlığımı, sonsuz təşəkkürümü bildirirəm. Mənim təqvimimə qazandırdığınız bu unudulmaz gün bayatılarda deyildiyi kimi min-min aya, minlərlə aya dəydi. Bu unudulmaz gün nə qədər mənə əzizdirsə, Xocavənd nə qədər mənə əzizdirsə, siz də mənə o qədər əzizdən əziz, doğmadan doğmasınız! Allah sizləri var etsin!

Sonda məqaləmi tədbirdə etdiyim çıxışla bitirmək istəyirəm:

“Çox dəyərli və hörmətli tədbir iştirakçıları! Hər birinizi səmimi qəlbdən, alovlu salamlayır, Şəhidlərimizə, Şəhidlərimizin müqəddəs qanı, qazilərimizin sağlamlığı bahasına işğaldan azad edilmiş, hər qarışı, zərrəsi hər birimiz üçün hər şeydən qiymətli olan torpaqlarımıza, o torpaqlarımızın mənfur düşmən tapdağından azad edilməsi üçün, haqqın, ədalətin bərpa edilməsi üçün başladığımız Şanlı Vətən müharibəmizə həsr etdiyimə görə mənim üçün digər 4 kitabımdan daha çox əziz olan və daha çox sevdiyim, daim tanıtmağa çalışdığım və çalışacağım “Möhtəşəm Zəfərin Nişanəsi” adlı kitabımın təqdimatında məni tək buraxmadığınız və təqdimatda iştirak etdiyiniz üçün sizin hər birinizə dərin minnətdarlığımı bildirirəm.

Əziz tədbir iştirakçıları! Qeyd etmək istəyirəm ki, bu gün mənim üçün böyük və tarixi bir gündür. Ona görə ki, bundan əvvəl kitabda haqlarında bəhs edilmiş, cənub regionundan olan (Cəlilabad, Masallı, Lənkəran, Astara və Lerik) Şəhidlərimizin ailə üzvlərinin iştirakı ilə Lənkəran Mərkəzi Kitabxanasında, Bakı və Bakı ətrafından olan Şəhidlərimizin ailələrinin iştirakı ilə Bakı şəhərində Firudin bəy Köçərli adına Respublika Uşaq Kitabxanasında, Bakı şəhəri Səbail rayon Müharibə Veteranları Birliyində və şimal-qərb regionundan olan Şəhidlərimizin yaxınlarının iştirakı ilə (İsmayıllı, Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala, Balakən) Şəki şəhəri Heydər Əliyev Mərkəzində təqdimatı keçirilən, sayca 5-ci kitabım olan və 44 günlük Vətən müharibəmizə, şəhidlərimizə və işğaldan azad edilmiş torpaqlarımıza həsr etdiyim “Möhtəşəm Zəfərin Nişanəsi” adlı kitabımın təqdimatı növbəti dəfə mənim üçün doğma olan bir məkanda keçirilir. Mən xoşbəxtəm ki, bu kitabın təqdimatı mənim, sözün əsl mənasında, Ana Vətənim olan Xocavənddə, bu yurdda, özü də elə Xocavəndin öz torpağında keçirilir. Bu gün məhz buna görə mənim üçün çox gözəl, tarixi, fərqli və fəxrli bir gündür. Mən inanıram ki, bu gündən sonra neçə illər keçsə belə, mən bu anları, bu torpağı, bu səmimiyyəti, bu isti münasibəti, sizlərlə birlikdə olduğum bu möhtəşəm zalı, mənim əməyimə qiymət verən hörmətli Xocavənd əhalisini, ziyalıları və bu fəxrli günü, bir an belə olsun, unuda bilməyəcəyəm və unutmayacağam. Bu, həm gələcək illərimin stimulu kimi, həm də fəxarətlə və şərəflə dolu dəqiqələrin yaşandığı bir gün kimi mənim yaddaşımda həmişə təzəliyini qoruyub saxlayacaqdır.

Təbii ki, ilhamımın mənbəyi olan yurdumun, vətənimin hər qarışı mənim üçün eyni dərəcədə əziz və doğmadır. Lakin Xocavənd mənim Ana Vətənim kimi həmişə ürəyimin başındadır. Çünki bu yer, bu torpaq saysız-hesabsız igidlər, qəhrəmanlar yetişdirib. Dədələrim, babalarım bu torpaqda ayaq açıb, yeriyib, bu torpağın havasıyla, suyuyla böyüyüblər. Ulu babam, Böyük Vətən müharibəsi veteranı Balay Əsgərov və ömrünü öz el-obasının şad, firavan günlərinə həsr etmiş, keçmiş SSRİ-nin əməkdar səmərələşdiricisi olan ana babam Saleh Həsənov və onların timsalında Xocavənddə doğulub boya-başa çatmış, hazırda aramızda olmayan ziyalılarımız bizə bir miras qoyub getmişlər. Ona görə də biz bu torpağı ürəyimizin şah damarı qədər əziz tutmalı və hər nə olursa olsun, dünyaya göz açdığımız yeri unutmamalı, yaşatmalıyıq. Elə elimizin igidləri, ərənləri də belə etdilər. Xocavəndin, Hadrutun düşmən tapdağında qaldığı gündən düşmən tapdağından azadlığa çıxdığı günə qədər keçən 30 ildə bizə nə Xocavəndi, nə də Qarabağı unutdura bilmədi mənfur düşmən. Əksinə böyükdən uşağa hamının qəlbində torpaq həsrəti, vətən sevgisini daha da coşdurdu, çağlatdı. Mən uşaq yaşlarımdan Qarabağ həsrəti ilə, Xocavənd həsrəti ilə yaşamışam, boy atmışam. O vaxtlar hələ doğulmasam da biləndən sonra ki babam Saleh Həsənov Xocavənd işğal olunan gün vaxtsız vəfat edib, bu hal məni daha da çox ağrıdıb. Məhz ona görə də babama yazdığım şeirimdə bildirmişdim ki, “bir gün mən Xocavəndi azad edəcəyəm, Sizin ruhunuzu şad edəcəyəm”. Bunu məlum səbəbdən mən edə bilməsəm də Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan ordusu cəmi 44 gündə Qarabağımızı azad edərək ulularımızın ruhlarını şad etdilər. Eşq olsun Ali Baş Komandanımıza, eşq olsun Şanlı Azərbaycan ordusuna!

Hörmətli tədbir iştirakçıları! Xocavənd və Qarabağ, həmçinin düşmən tapdağında olan ərazilərimizin azad olunması şeirlərimin, publisistik yazılarımın əsas mövzusuna çevrilmişdi. Buna görə də yazılarımın toplusu olaraq işıq üzü görən “Dünyamsan Azərbaycan”, “Hərdən uçmaq istəyirəm”, “Ulu Naxçıvanım”, “Könüllərə yol gəzirəm” və nəhayət, “Möhtəşəm Zəfərin nişanəsi” adlı kitablarımın əsas mövzusu vətənpərvərlik, gənclərimizə, həmyaşıdlarıma vətənpərvərlik mövzusunu aşılamaq, işğal altında olan torpaqlarımızın azadlığına çağırış idi. Lakin indi təqdimatı keçirilən “Möhtəşəm Zəfərin nişanəsi” adlı kitabımda söz Vətən həsrətindən yox, vətənin bir hissəsini, özəyini canları, qanları bahasına bizə qaytaran, lakin özləri qayıtmayan Vətən igidlərindən bəhs edilir. Burada Qarabağın qara dastanı yox, Qarabağın Zəfər dastanından bəhs olunur. Bu kitabda Şəhidlərimizin qısasına çağırışdan əlavə həm də onların alınmış qisaslarına yazdığım şeirlər və publisistik məqalələr yer almışdır. Bu kitab həsrətin yox, vüsalın kitabıdır. Siz bu kitabı oxuyanda bunun bir daha fərqinə varacağınıza əminəm. Onu da bildirim ki, 708 səhifəlik bu kitabda respublikamızın 60-dan çox rayonundan olan 400-dən çox Şəhidimizə və 2 qazimizə, 2 döyüşçümüzə həsr etdiyim məqalə və şeirlər, 365 şəhidimizin haqqında açdığım Vikipediya səhifələri yer almışdır. Birinci və İkinci Qarabağ müharibəsində Şəhidlik Zirvəsinə ucalan, Xocavənddən olan Vətən oğullarımızın da xatirəsi bu kitabda bir daha əbədiləşdirilmişdir. Mən bu kitabla onlara olan sonsuz borcumuzun, bir az da olsun, ödənilməsinə çalışmışam və hesab edirəm ki, onlara olan borcumuz o qədər ödənilməzdir ki, Onlara həsr etdiyimiz neçə-neçə kitablar, ucaltdığımız neçə-neçə abidələr, qəhrəmanlıqlarına yazdığımız neçə-neçə hekayələr, çəkdiyimiz filmlər Şəhidlərimizə olan borcumuzu ödəməyə çatmaz. Ancaq mən bir Vətən övladı kimi yaşadığım bu torpağın uğrunda canını əsirgəmədən fəda edən qəhrəmanlarımızı unutmamaq üçün sona qədər çalışdım ki, onlara layiqli bir kitab, qəhrəmanlıq dastanı, bir abidə hazırlaya bilim. Bu kitabın Şəhidlərimizə nə dərəcədə layiq olduğu, təbii ki, sizlərin, geniş oxucu kütləsinin qərarından asılıdır.

Onu da qeyd edim ki, bu kitabın kompüter yazısı mənim yuxusuz gecələrimin məhsulu olmaqla 1400 səhifə idi və möhtəşəm Zəfərimizin birinci ildönümünə çatdırmaq üçün mən bu kitabı 11 ay müddətinə yazmışdım. Lakin mənim üçün doğma və əziz olan şəhidlərimizin ailə üzvlərinin istər-istəməz narazı qalacaqlarını zənn etdiyimdən mən bu missiyamı davam etdirdim. Hazırda 300-ə yaxın şəhidimizdən bəhs olunan 508 səhifədən ibarət, eyni mövzulu “Dirçələn Xarı bülbül” adlı növbəti kitabım Mədəniyyət nazirimiz cənab Anar Kərimovun şəxsi təşəbbüsü ilə Mədəniyyət Nazirliyinin müvafiq komissiyasında çap üçün oxunuşdadır. Ümid edirəm ki, Xocavənd rayonundan olan şəhidlərimiz haqqında məqalə və şeirlərim də yer aldığı həmin kitabımın təqdimatını doğma Xocavəndimizdə keçirəcəyik.

Bu gözəl günü, bu gözəl tədbiri təşkil edərək bizlərə bəxş etdikləri üçün mən başda Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı çox hörmətli Eyvaz müəllim Hüseynov olmaqla, Xocavənd Rayon İcra Hakimiyyəti başçısının müavini Əfsanə xanım Quliyevaya, Rayon İcra Hakimiyyətinin əməkdaşlarına, Mədəniyyət nazirimiz cənab Anar Kərimova, Mədəniyyət Nazirliyinin Kürdəmir Regional Mədəniyyət İdarəsinin rəisi hörmətli Faiq müəllim Xudanlıya, və sizlərə dərin minnətdarlığımı bildirirəm. Şəhid ailələrinin isə qarşısında baş əyir, Şəhid analarının əllərindən öpürəm. Qeyd edim ki, cənab nazirimiz Anar Kərimovun xüsusi diqqəti və qayğısı sayəsində təkcə bu il onunla 3 dəfə görüşümüz olub. Bu görüşlərdən ən çox mənim yaddaşımda iz salanı isə nazirimizin şəxsi təşəbbüsü ilə bizim göz bəbəyimiz olan azad Şuşa şəhərində 9 sentyabr 2022-ci ildə şairə Xurşidbanu Natəvanın 190 illiyinə həsr edilmiş beynəlxalq tədbirdə görüşümüz olub. Allah vətənimizin belə qədirbilən oğullarını, qızlarını bizə çox görməsin, ana vətənimiz naminə belə səmimi, qayğıkeş, qədirbilən, sadə insanların, belə məmurların sayı çoxdan çox olsun. İnşəAllah!

Əziz tədbir iştirakçıları! Redaksiya heyətinin üzvü, ən gənc müxbiri, hər sayında bir qəhrəman şəhidimiz haqqında ən azı bir səhifə yazı dərc etdirərək siz izləyicilərimə çatdırdığım ”Kredo” universitetinin, yəni “Kredo” qəzetinin baş redaktoru, ustadım, ədiblərin “poeziyamızın Xudafərini” adlandırdıqları Əli Rza müəllim Xələflinin təqdimatını keçirdiyimiz bu kitabın ön sözündə yazdığı bir abzası diqqətinizə çatdırmaq istəyirəm. Hörmətli Əli Rza müəllim yazır: “Mənə elə gəlir ki, belə kitabların yazılması yaddaş üçün əvəzsiz iksirdir. Vaxt gələcək, Zəfər müharibəsinin tarixi yüz illiklərin fonunda qeyd olunacaq. Ola bilsin ki, hansı zamandasa insanlar bu müharibəni bir əfsanə kimi yada salacaqlar, bir nağıl kimi danışacaqlar. Ancaq bu kitab həmin andaca canlanacaq, yaddaşının üzərini toz basmış insanların gözü önündə qalxacaq və hər kəsə diktə edəcək ki, bu tarix əsası olmayan əfsanə deyil, yaşanmış həqiqətdir. Deməli, bu kitab həm də yaddaşımızın qaraçuxası kimi gələcəkdə, hətta uzaq gələcəkdə xalqımızın yaddaş keşikçisi olacaq”.

Əzizlərim! Qeyd etmək istəyirəm ki, kitabda siz mənim 27 sentyabr 2020-ci ildə Xocavəndə həsr etdiyim “Arzusundayam” adlı şeirimi oxuya bilərsiniz. Mən o günlərdə Xocavəndimin, Qarabağımın arzusunda idim və həm də onun arzusunda idim ki, mən bu möhtəşəm Zəfərimizə bir kitab həsr edim və o kitabımın ana Vətənim Xocavənddə təqdimatı keçirilsin. Birinci arzumu Ali Baş Komandanımızın rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu, ikinci arzumu isə Xocavənd rayonunun İcra Hakimiyyətinin başçısı başda olmaqla Kürdəmir Mədəniyyət İdarəsinin rəhbərliyi və sizlər gerçəkləşdirdiniz. Buna görə hamınıza minnətdaram. Allah Şəhidlərimizə rəhmət eləsin, Qazilərimizə can sağlığı versin! Allah sözü imzası olan Ali Baş Komandanımızı, Rəşadətli ordumuzu, vətənimizi və qəhrəman xalqımızı qorusun. Xocavənd bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!”

***08.12.2022***



***Sevindik NƏSİBOĞLU,***
***9-cu sinif şagirdi,***
***şair-publisist, AJB üzvü***